# XOCALI SOYQIRIMI

## Ədalət bərqərar olacaq!

**Dünyada elə yer adları var ki, onlar xəritədə sadəcə yaşayış məskəni olmaqdan daha böyük məna kəsb edir. Qəddarlıq və vəhşiliyin simvoluna çevrilmiş Auşvits, Xatın, Xirosima, Naqasaki, Sonqmi, Srebrenitsa kimi coğrafi məkan və şəhər adlarına ötən əsrin 90-cı illərinin əvvəllərində daha bir ad əlavə olundu - Azərbaycanın Xocalı şəhəri.**

**İnanılmaz vəhşiliklə törədilmiş Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir. Bu amansız faciənin tarixdə analoqu yoxdur və onun dəhşətli səhnələri hər bir azərbaycanlının yaddaşında əbədi qalacaqdır.**

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Xocalı bir gecədə dağıdılmış və yandırılmışdır. Bu faciə insanlığa qarşı cinayətdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının zirehli texnikası və şəxsi heyətinin dəstəyi ilə Xocalı şəhərini işğal edərək dinc əhaliyə qarşı amansız qırğın törətmişlər. Mühasirəyə düşmüş 2500 şəhər sakini gecə saat 2 radələrində eni 100 metrdən 300 metrə qədər olan "humanitar" dəhlizlə şəhəri tərk etmək, Ağdam istiqamətində hərəkət edərək qaçmağa cəhd göstərmişlər. Lakin onları pusquya salan erməni cəlladları yaxın məsafədən atəş açmaqla silahsız insanları güllələbaran etmişlər. 613 dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 qoca, uşaq və qadın əsir götürülərək görünməmiş işgəncələrə, təhqirlərə məruz qalmış, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmiş, 487 nəfər, o cümlədən 76 uşaq yaralanmış, 1275 nəfər əsir götürülmüşdür. 68-i qadın və 26-sı uşaq olmaqla 150 nəfərin taleyi hələ də məlum deyil. İnsanlar dərin panikaya düşmüş, onların bir hissəsi ərazidəki çayı keçə bilsələr də əksəriyyəti islanmış vəziyyətdə mənfi temperaturda səhərə yaxın hipotermiyadan həyatlarını itirmişlər. Həmin gecə donaraq ölənlərin ümumi sayını hesablamaq mümkün olmamışdır. Onların əksəriyyəti statistik hesabatlara görə hələ də itkin düşmüş sayılır.

Xocalıda inanılmaz vəhşiliklə törədilmiş soyqırımı 20-ci əsrin sonlarının ən dəhşətli faciələrindən biridir.

Azərbaycan Respublikası Ermənistan tərəfindən Azərbaycan ərazisində, o cümlədən Xocalıda törədilmiş hərbi cinayətlərə beynəlxalq müstəvidə siyasi və hüquqi qiymət verilməsi üçün bir çox beynəlxalq təşkilatlarda, dünya ölkələrinin parlamentlərində qətiyyətli addımlar atmışdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə rəsmən tanıdılması istiqamətində mühüm işlər görülmüşdür. "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə və təbliğat kampaniyasının əsas məqsədi Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, bu qətliamın beynəlxalq miqyasda mənəvi-siyasi tanınmasını təmin etmək və bu faciə qurbanlarının xatirəsini yad etməkdir. Bu kampaniya dünyanın bir çox ölkəsində uğurla həyata keçirilmişdir. Dünya ölkələri arasında Pakistan, Meksika və Kolumbiya Xocalı qətliamını soyqırımı aktı kimi tanımışdır. Çexiya, ABŞ-ın Qərbi Virciniya, Pensilvaniya, Missisipi, Men, Texas, Arkanzas, Oklahoma, Nyu-Meksiko, Tennessi və Konnektikut ştatlarının qanunverici orqanları Xocalı soyqırımına dair müvafiq qətnamələr qəbul etmişlər. Göstərilən səylər nəticəsində 10-dan çox ölkə, o cümlədən ABŞ-ın 20 ştatı bu qətliamı tanımış və pisləmişdir.

Dünyanın gözü qarşısında baş vermiş bu dəhşətli qətliamın əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra açılmışdır. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, 26 mart 1998-ci il tarixində ümummilli lider Heydər Əliyev tarix boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımları yad etmək məqsədilə 31 mart tarixini Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi haqqında sərəncam imzalamışdır.

Ümummilli lider Heydər Əliyev 2002-ci il fevralın 25-də Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bu soyqırımın tarixi və siyasi əhəmiyyətini vurğulamışdır: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir".

Heydər Əliyev Fondunun, xüsusilə onun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səyi ilə Fond soyqırımla bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində sistemli və davamlı iş aparır.

2007-ci il fevralın 26-da Brüsseldə Heydər Əliyev Fondu tərəfindən açılmış "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsm sərgisi Xocalı hadisələrinin arxasında duran həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində aparılan işlərdən biri olmuşdur. Bu məqsədlə Fond həmin ili fevralın 19-26-da "Xocalı həftəsi" tədbirlər proqramı çərçivəsində İstanbulda və Türkiyənin 25 vilayətində anım mərasimləri keçirmişdir. 2008-ci il fevralın 14-də Berlində "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" mövzusunda keçirilən elmi konfrans bu baxımdan mühüm əhəmiyyət kəsb etmişdir.



2012-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın 100-dən çox şəhərində Xocalı faciəsinin 20-ci ildönümü qeyd edilmişdir. Bu anım tədbirləri Fondun hazırladığı maarifləndirmə materialı əsasında keçirilmişdir. 2008-ci il mayın 8-də Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının ildönümü münasibətilə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyasına dair təşəbbüs irəli sürülmüş, 2009-cu ilin fevralından həmin təşəbbüsün icrasına start verilmişdir. Forum vasitəsilə Xocalı faciəsinin arxasında duran həqiqətin təbliği istiqamətində silsilə tədbirlər təşkil edilmişdir.

Pakistan Milli Assambleyasının Xarici Əlaqələr Daimi Komitəsi 2013-cü il fevralın 2-də Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını və 26 fevral 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdiyi soyqırımını pisləyən qətnamə qəbul etmişdir. Qətnamədə Xocalı qətliamı soyqırımı və insanlığa qarşı cinayət aktı kimi tanınmış və günahkarların müvafiq beynəlxalq sənədlərə uyğun olaraq cəzalandırılmalı olduğu bəyan edilmişdir.

2013-cü il fevralın 6-7-də Misirin paytaxtı Qahirədə keçirilən və dövlət və hökumət başçılarının iştirakı ilə İƏT-in ali orqanı olan 12-ci İslam Zirvə Konfransı Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımışdır. İslam Əməkdaşlıq Təşkilatının 57 dövlətdən ibarət Xarici İşlər Nazirləri Şurası 9-11 dekabr 2013-cü il tarixlərində Qvineyanın paytaxtı Konakri şəhərində keçirilən 40-cı sessiyasında Xocalı faciəsini bir daha soyqırımı aktı kimi tanımışdır.

27-28 may 2015-ci il tarixlərində İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurası Xocalı faciəsini bir daha soyqırımı aktı kimi tanımışdır.

Xocalı faciəsinin soyqırımı kimi tanınması istiqamətində aparılan işlər artıq daha ciddi nəticələr verməkdədir. Belə ki, Xocalı soyqırımının 14, 15 və 16-cı ildönümü Rusiya, Almaniya, ABŞ, Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Küveyt və bir sıra digər ölkələrdə geniş qeyd olunmuşdur.

2005-2007-ci illərdə Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarında Xocalı soyqırımı geniş müzakirə olunmuş, 19-26 fevral 2011-ci il tarixlərində Türkiyənin müxtəlif şəhərlərində "Xocalı həftəsi" tədbirlər proqramı çərçivəsində bir sıra anım mərasimləri və kampaniyalar təşkil edilmişdir.

ABŞ-da Xocalı soyqırımının tanınması istiqamətində ilk addım 25 fevral 2010-cu ildə atılmışdır. Həmin gün Massaçusets ştatının Nümayəndələr Palatası Xocalı qətliamını tanıyan qətnamə qəbul etmişdir. 11 iyun 2011-ci ildə Texas ştatı Xocalı qətliamının qurbanlarının tanınması və yad edilməsi haqqında qətnamə qəbul etmişdir.

Bu prosesin davamı olaraq 22 fevral 2012-ci ildə Nyu-Cersi və Corciya ştatları Xocalı qətliamı ilə bağlı qətnamələr qəbul etmişlər. Corciya ştatının Nümayəndələr Palatasının qəbul etdiyi 1594 saylı qətnamə Azərbaycan və türk diasporlarının geniş miqyaslı səylərinin nəticəsidir. 2012-ci il martın 23-də Men Ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı qərar qəbul etmişdir.

2013-cü ildən Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması sürətlənmişdir. Belə ki, yanvarın 28-də Nyu Meksiko ştatının Senatı, daha sonra isə Nümayəndələr Palatası Xocalı qətliamını tanıyan qətnamələr qəbul etmişdir. Bunun ardınca Arkanzas ştatının Nümayəndələr Palatası və Senatı müvafiq olaraq fevralın 8-də və 11-də, Missisipi ştatı isə fevralın 25-də Xocalı qətliamı ilə bağlı qətnamələr qəbul etmişdir. Daha sonra martın 4-də Oklahoma ştatı, martın 8-də İndiana ştatı, 18-də Pensilvaniya Baş Assambleyası və Tennessi ştatının Nümayəndələr Palatası, aprelin 3-də Qərbi Virciniya ştatının Nümayəndələr Palatası müvafiq qətnamələr qəbul etmişlər. Xocalı soyqırımının Mayın 3-də Konnektikut Baş Assambleyası Xocalı qətliamını tanımışdır.

2015-ci ilin fevralında Arizona ştatının Senatı (yuxarı palatası) Xocalı qətliamını tanıyan qətnamə qəbul etmiş, daha sonra mart ayında Yuta qubernatoru Xocalı qətliamını tanıyan qətnamə imzalamışdır. 2016-cı ildə ABŞ-ın Nebraska, Havay, Montana və Aydaho ştatları Xocalı qətliamını tanıyan xüsusi bəyannamə imzalamışlar. Beləliklə, Xocalı qətliamını pisləyən və tanıyan ABŞ ştatlarının sayı 21-ə çatmışdır.

2011-ci il dekabrın 20-də Meksika Konqresinin Deputatlar Palatası Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalını və Xocalıda törədilən qətliamı kəskin şəkildə pisləyən qətnamə qəbul etmişdir.

Kolumbiya Meksikadan sonra Xocalı soyqırımını tanıyan ikinci Latın Amerikası ölkəsi olmuş, ölkə Senatı 23 aprel 2012-ci ildə müvafiq qətnamə qəbul etmişdir.

17 yanvar 2014-cü ildə Honduras Milli Konqresi Azərbaycan torpaqlarının işğalını və Xocalı soyqırımını tanıyan 333-2013 saylı qətnamə qəbul etmiş və qətnamə Milli Konqresin prezidenti və katibləri tərəfindən təsdiqlənmişdir.

2014-cü il sentyabrın 1-də Sudan Milli Assambleyasının Xarici Əlaqələr Komitəsi 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində baş vermiş qanlı hadisələri soyqırımı və insanlığa qarşı cinayət aktı kimi tanıyan qətnamə qəbul etmişdir. Qətnamədə Xocalı qurbanlarının və onların yaxınlarının onlara dəyən maddi və mənəvi zərərə görə ədalətli və əsaslı təzminat almaq hüquqları tanınmışdır.

Çexiya Ermənistanı Xocalıda dinc sakinlərin qətlinə görə rəsmən qınayan və bu hadisələri insanlığa qarşı cinayət kimi tanıyan Avropa İttifaqına üzv olan ilk ölkə olmuşdur. 2013-cü il fevralın 7-də ölkə Parlamentinin Deputatlar Palatasının Xarici Əlaqələr Komitəsi qətnamə qəbul etmişdir. Bu qətnamədə Çexiya bir daha Dağlıq Qarabağ bölgəsini Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi rəsmən tanımışdır.

2016-cı ildə İtaliya Senatının Avropa İttifaqı Siyasəti Komissiyasının üzvü, Demokratik partiyasından olan senator Paolo Paleotti Senatın ümumi iclasında Xocalı soyqırımını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən faciəvi hadisəsi adlandırmışdır.

2017-ci ildə indoneziyalı deputat Meutya Viada Hafid "Xocalı faciəsinin bütün dünyanı sarsıdan bir soyqırımı olduğunu" qeyd etmişdir.

2017-ci ildə Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri və deputat Maksim Kuryaçiy Xocalı faciəsini törədənlərin cəzalandırılmalı olduğunu bəyan etmişdir.

Xocalı soyqırımının 30 illiyi ərəfəsində Ukrayna Azərbaycanlıları Radasının həmsədri, "Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu"nun sədri Hikmət Cavadovun imzası ilə Ali Radaya daxil olan məktubda Xocalı soyqırımının tanınması məsələsi qaldırılmışdır. "Xocalı faciəsinin soyqırımı kimi tanınması tarixi ədalətin bərpasına, Ukrayna və Azərbaycan arasında olan dostluq münasibətlərinə töhfə verəcək" - deyə müraciətdə bildirilmişdir.

Böyük Britaniya hökuməti də faciənin 30-cu ildönümü ərəfəsində Xocalı soyqırımına münasibət bildirmişdir. Belə ki, Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Böyük Britaniya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Bob Bləkman bununla bağlı hökumətə yazılı sorğu ünvanlamışdır.

Hökumətin mövqeyini xarici işlər nazirinin müavini, Avropa məsələləri üzrə dövlət naziri Kris Hiton-Harris açıqlamışdır. Bləkmanın sualına cavab olaraq dövlət naziri Xocalı soyqırımını Azərbaycan tarixinin ən faciəli səhifələrindən biri kimi qiymətləndirmişdir. O, Xocalı soyqırımının törədildiyi vaxt hakimiyyətdə olan Böyük Britaniya hökumətinin bu qətliamı qətiyyətlə pislədiyini xatırlatmışdır. Dövlət naziri bu cür faciələrin gələcəkdə təkrarlanmasının yolverilməz olduğunu vurğulamışdır.

Beləliklə, Xocalı soyqırımının təbliği və tanıdılması istiqamətində görülən işlər öz bariz nəticələrini verməkdədir və bu proses getdikcə sürətlənməkdədir. Bu, şübhəsiz ki, Azərbaycan hökumətinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında mühüm əhəmiyyət kəsb edir.

Ölkə başçısı şəhid ailələri və müharibə əlilləri ilə görüşündə Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayət olduğu və bu cinayəti Ermənistan dövlətinin törətdiyi, lakin İkinci Qarabağ müharibəsində Azərbaycan ordusunun döyüş meydanında Xocalı qurbanlarının da qisasını aldığını bildirmişdir.

Prezident cənab İlham Əliyevin Xocalı soyqırımının 30-cu ildönümünün qeyd olunması ilə əlaqədar 28 yanvar 2022-ci il tarixli Sərəncamında qeyd olunmuşdur ki, haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".

Göründüyü kimi, Xocalı soyqırımının tanıdılması istiqamətində indiyədək mühüm işlər görülmüş, ciddi nəticələr əldə edilmişdir. İkinci Qarabağ savaşında Azərbaycanın qazandığı parlaq qələbə Xocalı soyqırımının bundan sonra da tanıdılması üçün əlverişli şərait və əlavə imkanlar yaratmışdır. Artıq qalib ölkə imici formalaşdırmaqla beynəlxalq müstəvidə diktə etmək imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırmış Azərbaycan Respublikası və xalqı öz haqq mövqeyini, o cümlədən ermənilərin 30 il əvvəl Xocalıda törətmiş olduqları vəhşilik və soyqırımı əməllərinin tanıdılmasını daha rahat və daha uğurla davam etdirmək imkanı əldə etmişdir. Azərbaycanlılara qarşı misilsiz qəddarlıqlar törətmiş Erməni vandallarının beynəlxalq hüquqi vasitələrdən istifadə edilməklə cəzalandırılması üçün imkanlar yaranmışdır. İndiyədək əldə olunanlara əsaslanmaqla bu imkanlardan maksimum istifadə olunarsa, haqq-ədalət öz yerini tapacaqdır. Bu hər bir ədalət tərəfdarının, o cümlədən erməni vəhşiliklərindən zərərçəkmiş Xocalı sakinlərinin ən böyük arzusudur.

**İsgəndər ORUCOV,**
**İmişli Regional Ədliyyə İdarəsinin rəisi.**